**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**«Əcnəbinin Naxçıvan Muxtar Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirməsi üçün fərdi icazənin verilməsi Qaydaları»nın və həmin fərdi icazənin nümunəsinin təsdiq edilməsi haqqında**

«Əcnəbinin Azərbaycan Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirməsi üçün fərdi icazənin verilməsi Qaydalarının və həmin fərdi icazənin nümunəsinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 dekabr tarixli 214 nömrəli qərarından irəli gələn vəzifələrin təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır**:

1. «Əcnəbinin Naxçıvan Muxtar Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirməsi üçün fərdi icazənin verilməsi Qaydaları və həmin fərdi icazənin nümunəsi» təsdiq edilsin (əlavə olunur).
2. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dövlət Miqrasiya Xidməti bu qərardan irəli gələn məsələləri həll etsinlər.
3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri**: **Ə.Baxşıyev**

30 sentyabr 2010-cu il

№ 84

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 sentyabr tarixli 84 nömrəli qərarı ilə təsdiq edilmişdir

# Əcnəbinin Naxçıvan Muxtar Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirməsi üçün fərdi icazənin verilməsi QAYDALARI

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar "Əmək miqrasiya haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 250 nömrəli Fərmanına əsasən hazırlanmış və əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin (bundan sonra - əcnəbi) Naxçıvan Muxtar Respublikası ərazisində əmək fəaliyyətini həyata keçirmələrinə fərdi icazə (bundan sonra - fərdi icazə) verilməsi qaydalarını müəyyən edir.

1.2. Naxçıvan Muxtar Respublikasının ərazisinə əmək fəaliyyətini həyata keçirmək məqsədi ilə gəlmiş əcnəbi yalnız onu işə götürən hüquqi və fiziki şəxsin (bundan sonra - işəgötürən) aldığı əcnəbi işçi qüvvəsinin cəlb olunması və ondan istifadə edilməsinə xüsusi razılıq (lisenziya) (bundan sonra - lisenziya) əsasında onun adına verilmiş fərdi icazə olduqda Naxçıvan Muxtar Respublikası ərazisində işləyə bilər.

Fərdi icazə əcnəbinin Naxçıvan Muxtar Respublikasında əmək fəaliyyəti ilə məşğul olmasına icazə verən rəsmi sənəddir.

1.3. Əcnəbilərlə əmək müqavilələri fərdi icazənin müddətinə uyğun bağlanılır. İşəgötürən fərdi icazə almış əcnəbini başqa işəgötürənin yanında işə keçirə bilməz.

1.4. Əcnəbilərə fərdi icazələr Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəyi əsasında Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilir.

Əcnəbilərə verilmiş fərdi icazələr işəgötürənlərə Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən təqdim edilir.

Əcnəbilərin haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün əsas şərtlər iş yerinin tələblərinə cavab verən peşə hazırlığına

və ixtisasa malik Azərbaycan Respublikası vətəndaşının iddia etmədiyi boş iş yerlərinin mövcudluğundan, məşğulluq xidməti orqanlarının işəgötürənlərin işçi qüvvəsinə olan ehtiyaclarını yerli əmək ehtiyatları hesabına təmin etmək imkanının olmamasından ibarətdir.

1.5. İşə cəlb edilən aşağıdakı əcnəbi şəxslər üçün fərdi icazə alınması tələb olunmur:

Naxçıvan Muxtar Respublikası ərazisində daimi yaşayanlara;

sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara;

beynəlxalq müqavilələr əsasında yaradılmış təşkilatların rəhbər işçilərinə;

diplomatik nümayəndəlik və konsulluqlarda işləyənlərə;

beynəlxalq təşkilatlarda işləyənlərə;

üç aydan çox olmayan müddətdə ezamiyyətdə olanlara; müvafiq icra hakimiyyəti orqanı tərəfindən işə cəlb edilənlərə;

dövlət qeydiyyatına alınmış dini təşkilat və cəmiyyətlərdə dini fəaliyyətlə məşğul olanlara;

kütləvi informasiya vasitələrinin akkreditə olunmuş əməkdaşlarına;

dənizçilərə;

idmançılara və incəsənət işçilərinə;

ali təhsil müəssisələrində mühazirə kurslarının oxunması üçün dəvət edilən professor-müəllim heyətinə, mühazirəçilərə və elmi tədqiqat işləri aparan mütəxəssislərə;

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən xarici hüquqi şəxslərin və xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin rəhbərləri və onların müavinləri vəzifələrinə cəlb olunan əcnəbilərə.

1.6. Naxçıvan Muxtar Respublikasında əmək fəaliyyətini həyata keçirmək üçün fərdi icazə almış əcnəbilər haqqında məlumatlar Vahid miqrasiya məlumat sisteminə daxil edilir.

## 2. FƏRDİ İCAZƏNİN VERİLMƏSİ QAYDASI

2.1. Fərdi icazə almaq üçün işəgötürən Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinə aşağıdakı sənədləri təqdim etməlidir:

2.1.1. ərizə;

ərizədə aşağıdakılar öz əksini tapmalıdır;

hüquqi şəxslər üçün - hüquqi şəxsin adı, təşkilati-hüquqi forması, hüquqi unvanı;

fiziki şəxslər üçün - adı, atasının adı, soyadı, şəxsiyyəti təsdiq edən sənəd haqqında məlumatlar (seriya, nömrə, nə vaxt və kim tərəfindən verilmişdir, ünvanı);

əcnəbinin adı, atasının adı, soyadı, vətəndaşlığı, daimi yaşayış yerinin ünvanı, doğulduğu tarix və ölkə, cinsi, ixtisası, son beş ildə əmək fəaliyyəti haqqında məlumat, işləyəcəyi vəzifə və iş yerinin ünvanı;

2.1.2. işəgötürənə verilmiş lisenziyanın surəti;

2.1.3. əcnəbi işçinin nəzərdə tutulan işi yerinə yetirmək üçün tələb edilən ixtisasa malik olduğunu təsdiq edən sənədin notariat qaydasında təsdiq olunmuş surəti;

2.1.4. nəzərdə tutulan hər bir iş yerı üçün əcnəbi işçinin cəlb edilməsi zəruriliyini əsaslandıran arayış;

2.1.5. Naxçıvan Muxtar Respublikası ərazisində başqa əsaslarla olan əcnəbinin Naxçıvan Muxtar Respublikası ərazisində qalmasına hüquq verən müvafiq sənədin surəti;

2.1.6. İşəgötürən:

Hüquqi şəxs olduqda - hüquqi şəxsin nizamnaməsinin və dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surətləri;

Fiziki şəxs olduqda - fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənədinin və fiziki şəxsə verilmiş vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surətləri;

2.1.7. əcnəbinin sağlamlığı, o cümlədən siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş yoluxucu xəstəliklərin daşıyıcısı olmaması haqqında tibbi arayış;

2.1.8. əcnəbinin şəxsiyyətini təsdiq edən sənədin surəti.

2.2. Təqdim edilmiş sənədləri Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti öz rəyi ilə birlikdə Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə rəsmi qaydada təqdim edir.

Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində daxil olmuş sənədlər xüsusi kitabda qeydə alınaraq baxılır və 7 (yeddi) iş günü müddətində əcnəbinin

Naxçıvan Muxtar Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirməsi üçün fərdi icazənin verilməsi və ya bundan imtina edilməsi barədə müvafiq qərar qəbul edilir. Fərdi icazə verilməsi haqqında qərar qəbul edildikdə, Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi fərdi icazənin müəyyən olunmuş qaydada doldurulmasını və Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidmətinə rəsmi qaydada təqdim olunmasını təmin edir.

Fərdi icazənin verilməsindən imtina barədə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qərarı "Əmək miqrasiyası haqqında" Azərbaycan Respublikasının Qanununa və ya bu Qaydalara istinad olunmaqla əsaslandırılmalı və Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən işəgötürənə təqdim edilməlidir.

2.3. Fərdi icazə almaq üçün dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd təqdim edildikdən sonra işəgötürənə təqdim edilir.

İşəgötürənlər tərəfindən fərdi icazənin alınmasına görə dövlət rüsumunun ödənilməsindən imtina edildikdə, Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti 2 (iki) iş günü ərzində bu fərdi icazənin Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə rəsmi qaydada qaytarılmasını təmin edir və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi belə fərdi icazələri ləğv edir.

2.4. Aşağıdakı hallarda fərdi icazənin verilməsindən imtina edilir:

2.4.1. bu Qaydalarda nəzərdə tutulan sənədlər təqdim edilmədikdə;

2.4.2. işəgötürənin müvafiq lisenziyası olmadıqda və ya lisenziyanın qüvvəsinin dayandırıldığı dövrdə müraciət edildikdə;

2.4.3. təqdim edilən sənədlərdə qeyri-dürüst və ya təhrif olunmuş məlumatlar olduqda;

2.4.4. işəgötürənin işçi qüvvəsinə olan tələbatının yerli əmək ehtiyatları hesabına ödənilməsi mümkün olduqda;

2.4.5. əcnəbi Naxçıvan Muxtar Respublikasında axırıncı əmək fəaliyyətinin başa çatdığı gündən etibarən Naxçıvan Muxtar Respublikasının hüdudlarından kənarda 1 ildən az müddətdə yaşadıqda;

2.4.6. işə cəlb olunması nəzərdə tutulan əcnəbinin 18 yaşı tamam olmadıqda;

2.4.7. əmək miqrasiyası kvotası ilə müəyyən edilmiş saydan artıq müraciət edildikdə;

2.4.8. əcnəbi ruhi xəstə və ya siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş yoluxucu xəstəliklərin daşıyıcısı olduqda.

2.5. İşəgötürən fərdi icazə verilməsindən imtinaya əsas olmuş halları aradan qaldırdıqdan sonra fərdi icazə almaq üçün bu Qaydalara uyğun olaraq, Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidmətinə yenidən müraciət edə bilər.

2.6. İşəgötürən əcnəbini öz yanında başqa işə keçirmək istədikdə bu Qaydalarla müəyyən olunmuş qaydada yeni fərdi icazə almalıdır. Əcnəbiyə iş yerinin dəyişməsi ilə bağlı yeni fərdi icazə verildikdə həmin fərdi icazənin müddəti əvvəl verilmiş fərdi icazənin müddətinin qalan hissəsindən çox olmamalıdır.

2.7. Əcnəbi işçının şəxsiyyətini təsdiq edən sənəddəki məlumatlar dəyişdikdə və ya fərdi icazə itirildikdə, onun işəgötürəni 15 gün müddətində Dövlət Miqrasiya Xidmətinə məlumat verməli və fərdi icazənin yenidən rəsmiləşdirilməsi və ya fərdi icazənin ləğv edilməsi üçün ərizə təqdim etməlidir. 15 gün müddətində işəgötürən tərəfindən müvafiq ərizə təqdim edilmədikdə əcnəbiyə verilmiş fərdi icazə ləğv edilir.

Fərdi icazə yenidən rəsmiləşdirildikdə, yalnız fərdi icazənin yenidən rəsmiləşdirilməsi səbəbi ilə bağlı sənədlər təqdim edilir. Fərdi icazənin yenidən rəsmiləşdirilməsi üçün haqq alınmır.

2.8. Fərdi icazə blankının ciddi hesabat sənədi kimi qeydiyyat seriyası və nömrəsi, habelə qiymətli kağızların səviyyəsində qoruyucu nişanları olmalıdır. Fərdi icazə əmək və əhalinin sosial müdafiəsi naziri (o olmadıqda onun səlahiyyətlərini icra edən müavini) tərəfindən imzalanır və nazirliyin möhürü ilə təsdiq edilir.

## 3. FƏRDİ İCAZƏNİN MÜDDƏTİ

3.1. Fərdi icazə 1 ilədək müddətə verilir. Fərdi icazələrin müddəti hər dəfə 1 ildən çox olmamaq şərti ilə işəgötürənin müvafiq lisenziyasının qüvvədə olma müddəti nəzərə alınmaqla 4 dəfə uzadıla bilər. Fərdi icazənin müddətinin uzadılması üçün işəgötürən fərdi

icazənin müddətinin bitməsinə azı 22 iş günü qalmış Dövlət Miqrasiya Xidmətinə ərizə ilə müraciət etməlidir.

3.2. Fərdi icazənin müddətinin uzadılması üçün işəgötürən bu Qaydaların 2.1.1. və 2.1.4-cü bəndlərində nəzərdə tutulan sənədləri təqdim etməlidir.

3.3. Fərdi icazənin müddətinin uzadılması bu Qaydaların 2.2-ci bəndinə uyğun olaraq həyata keçirilir.

3.4. Müddəti uzadılmış fərdi icazə, fərdi icazənin müddətinin uzadılmasına görə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd təqdim edildikdən sonra işəgötürənə təqdim edilir.

İşəgötürənlər tərəfindən fərdi icazənin müddətinin uzadılmasına görə dövlət rüsumunun ödənilməsindən imtina edildikdə, Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti 2 iş günü ərzində bu fərdi icazənin Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə rəsmi qaydada qaytarılmasını təmin edir və Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi belə fərdi icazələri ləğv edir.

## 4. FƏRDİ İCAZƏNİN QÜVVƏDƏ OLMA QAYDALARI VƏ NƏZARƏT

4.1. Əcnəbi işçi ilə işəgötürən arasında bağlanmış əmək müqaviləsi vaxtından əvvəl pozulduqda və ya işəgötürənə verilmiş lisenziya ləğv edildikdə, əcnəbi işçiyə verilmiş fərdi icazə öz qüvvəsini itirir. Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti bu məlumatları 2 iş günü ərzində Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə rəsmi qaydada təqdim edir.

Əcnəbi işçi ilə işəgötürən arasında bağlanmış əmək müqaviləsi vaxtından əvvəl pozulduqda, işəgötürən 5 gün müddətində Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinə məlumat verməlidir.

4.2. Əcnəbi işçi fərdi icazənin müddəti bitdikdə və ya əmək müqaviləsi pozulduqda Naxçıvan Muxtar Respublikası ərazisində qalmasına əsas verən digər hallar olmadıqda, qanunvericilikdə nəzərdə tutulmuş müddət ərzində Naxçıvan Muxtar Respublikasının ərazisini tərk etməlidir.

4.3. Naxçıvan Muxtar Respublikasına başqa əsaslarla gəlmiş əcnəbi əmək fəaliyyəti ilə məşğul olmaq üçün fərdi icazə əsasında

Naxçıvan Muxtar Respublikasında müvəqqəti yaşamaq üçün icazə almalıdır.

4.4. Fərdi icazənin qüvvədə olma qaydalarına nəzarəti öz səlahiyyətləri daxilində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dövlət Miqrasiya Xidməti həyata keçirirlər.

4.5. Nəzarət qaydasında Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti öz səlahiyyətləri daxilində aşağıdakıları həyata keçirirlər:

4.5.1. əcnəbi işçi qüvvəsindən istifadə edilməsini tənzimləyən normativ hüquqi aktlara və bu Qaydalara riayət edilməsini yoxlamaq;

4.5.2. yoxlama zamanı ortaya çıxan məsələlər haqqında işəgötürəndən və əcnəbi işçidən məlumat və ya arayış almaq;

4.5.3. aşkar olunmuş pozuntular haqqında akt tərtib etmək və ya xəbərdarlıq etmək;

4.5.4. fərdi icazənin ləğv edilməsi məsələsinə baxmaq;

4.5.5. fərdi icazəsi ləğv edilmiş və fərdi icazə almadan işə cəlb olunmuş əcnəbi işçilərin Naxçıvan Muxtar Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılması barədə vəsatət vermək;

4.5.6. fərdi icazəsi ləğv edilmiş və fərdi icazə almadan işə cəlb olunmuş əcnəbi işçilərin Naxçıvan Muxtar Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılması barədə qərar qəbul etmək;

4.5.7. fərdi icazə almadan əcnəbinin işə cəlb olunmasına görə işəgötürənə qanunvericiliklə müəyyən olunmuş qaydada cərimə tətbiq etmək.

4.6. işəgötürən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və ya Dövlət Miqrasiya Xidmətinin nümayəndələrinə yoxlamanın aparılması üçün zəruri olan normal şərait yaratmağa, tələb olunan sənədləri onlara təqdim etməyə borcludur.

4.7. Yoxlamanın nəticəsi barədə iki nüsxədən ibarət akt tərtib edilir. Akt Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və ya Dövlət Miqrasiya Xidmətinin nümayəndələri və işəgötürən tərəfindən imzalanır. Aktı imzalamaqdan imtina edildikdə, bu barədə aktda qeyd edilir. Akta işəgötürənin izahatı əlavə edilir. Aktın bir nüsxəsi işəgötürəndə qalır.

4.8. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və ya Dövlət Miqrasiya Xidməti zəruri hallarda müvafiq təşkilatların nümayəndələrini bu Qaydalara uyğun nəzarət qaydasında aparılan yoxlamalara cəlb edə bilərlər.

## 5. FƏRDİ İCAZƏNİN LƏGV EDİLMƏSİ

5.1. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi aşağıdakı hallarda fərdi icazəni ləğv edir:

5.1.1. işəgötürənin lisenziyası ləğv edildikdə;

5.1.2. işəgötürənlə əcnəbi işçi arasında bağlanmış əmək müqaviləsi vaxtından əvvəl pozulduqda;

5.1.3. fərdi icazə alınması üçün təqdim edilən sənədlərdə düzgün olmayan məlumatlar aşkar edildikdə;

5.1.4. fərdi icazənin qüvvədə olma qaydaları pozulduqda; 5.1.5. məhkəmənin müvafiq qərarı olduqda;

5.1.6. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan digər hallarda.

5.2. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi verilən və ləğv edilən fərdi icazələrin reyestrini aparır.

## 6. MƏSULİYYƏT

6.1. İşəgötürənlər və əcnəbi işçilər bu Qaydaların müddəalarının pozulmasına görə mövcud qanunvericiliyə uyğun məsuliyyət daşıyırlar.

6.2. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Dövlət Miqrasiya Xidmətinin qərarlarından və hərəkətlərindən inzibati qaydada və ya məhkəmə orqanlarına şikayət oluna bilər.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 sentyabr tarixli 84 nömrəli qərarı ilə təsdiq edilmişdir

# Əcnəbinin Naxçıvan Muxtar Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirməsi üçün FƏRDİ İCAZƏ

**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**

Əcnəbinin Naxçıvan Muxtar Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirməsinə

FƏRDİ İCAZƏ

№__________

Verilir______________________vətəndaşı
ölkə

___________________________________
soyadı, adı

_____________-dən_____________-dək
tarix tarix

etibarlıdır.
_________________________tərəfindən
hüquqi və ya fiziki şəxsin adı əcnəbi işçi qüvvəsinin cəlb edilməsi və ondan istifadə edilməsinə

_______tarixli ________

nömrəli lisenziya əsasında

__________

_________________________ünvanda

______________________vəzifəsində
işləməyə cəlb olunmuşdur.

M.Y.

___________________
məsul şəxsin imzası

______________________________
vəzifəsi, soyadı, a.a.
müddəti uzadılmışdır:

________dək______M.Y.________
imza tarix

________dək______M.Y.________
imza tarix

________dək______M.Y.________
imza tarix

________dək______M.Y.________
imza tarix

(Şəxsiyyətini təsdiq edən sənəd təqdim edildikdə etibarlıdır)